**Balakən səfəri - May 2006**

**Hörmətli xanımlar və cənablar!**
**Əziz Balakənlilər!**

"Azərbaycan - Türkiyə İş Adamları Birliyi" İctimai Birliyi (ATİB) fəaliyyətə başladığı 17 Aprel 2004-cü il tarixindən etibarən Azərbaycanın iqtisadi inkişafına töhfə vermiş və Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin dərinləşdirilməsi istiqamətində bir sıra ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirmişdir. Bu tədbirləri qısa olaraq aşağıdakı kimi xarakterizə etmək olar:

1) 100-dən çox azərbaycan və türk iş adamını öz ətrafında birləşdirən ATİB-in əsas məqsədi üzvləri arasında qarşılıqlı münasibətlərin yaradılmasına və Azərbaycana xarici investisiyasının cəlb edilməsi imkanlarının yaxşılaşdırılmasına dəstək verilməsindən ibarətdir
2) ATİB keçən müddət ərzində müxtəlif dövlət və qeyri-hökumət təşkilatları ilə memarandum və niyyət protokolları imzalamış və qarşılıqlı iş birliyini həyata keçirməyə başlamışdır. Bunlara parlaq misal kimi Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Amerika Ticarət Palatası, Azərbaycan Rusiya İşgüzar Əməkdaşlıq Palatası, Alman Azərbaycan İqtisadi Yardım İttifaqı, Şimali Kipr Sənaye Palatası, Azərbaycan Lizinq Şirkətləri Assosiasiyası (cəmi 12 təşkilat) və s. göstərmək olar. Bu cür iri biznesi təmsil edən təşkilatlar ilə əlaqələrin genişləndirilməsi son nəticədə BİZNESİ təmsil edən QHT-rin Koordinasiya Şurasının yaradılmasına gətirib çıxartdı. Hələ 2005-ci il Parlament seçkilərindən əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadi siyasətini dəstəkləmək məqsədi ilə birgə MÜRACİƏTƏ imza atmış bu biznes təşkilatlarının bir sırada birləşdirilməsində ATİB böyük rol oynamışdır.
3) Azərbaycan və Türkiyədə yüksək səviyyədə biznes forumların təşkil olunması. Respublikada əlverişli investisiya mühitini təşfiq etmək və ölkəmizdə yeni iş yerlərinin açılması istiqamətində özəl sektorun daha geniş miqyasda cəlb olunmasını təmin etmək üçün bu kimi biznes forumlar keçirilməsi böyük əhəmiyyət kəsb edir. Sonuncu belə tədbir 11-12 aprel 2006-cı il tarixində İstanbul şəhərində Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin dəstəyi və İstanbul Ticarət və Sənaye Palatalarının birgə təşkilatçılığı ilə həyata keçirilmişdir
4) Azərbaycan Respublikasının Regionlarının Sosial İqtisadi İnkişaf Proqramını rəhbər tutaraq reginlarda yerli iş adamları ilə ikitərəfli görüşlərin keçirilməsi və biznes layihələrin təqdim edilməsi. İlk belə tədbir 2005-ci ilin oktyabrında Lənkəran şəhərində keçirilmişdir

5) **Azərbaycan Respublikasının Prezidenti Zati Aliləri cənab İlham Əliyevin tövsiyyəsi və məsləhəti əsasında ə**razisinə Türkiyədən savayı digər ölkənin təyyarəsinin enməsi və ərazisindən digər ölkəyə birbaşa uçuşun həyata keçirilməsi ilə bağlı Şimali Kipr Türk Respublikasının (ŞKTR) siyasi və iqtisadi blokadadan çıxardılması istiqamətində ŞKTR ilə bağlı ilkin addımların ATİB tərəfindən həyata keçirilməsi. Xatırladıram ki, bu tarixi səfərlər 2005-ci ildə baş vermiş ilin ən mühim hadisəsi kimi seçilmiş və ATİB-in İdarə Heyətinin yekdilliklə qəbul etdiyi qərarla bu məsələdə göstərdiyi qətiyyətli və cəsarətli addıma gore **Azərbaycan Respublikasının Prezidenti Zati Aliləri cənab İlham Əliyev İLİN DÖVLƏT ADAMI** nominasiyasına layiq görülmüşdür.

6) Regional iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində ən mühüm addımlardan biri olan Avrasiya İş Adamları Birliyinin (AVİB) yaradılması yolunda 1-ci Bakı Görüşünün 6-7 Oktyabr 2006-cı il tarixlərində təşkil olunması. Avrasiya regionunun 10-dan çox ölkəsinin iri biznes qurumlarını öz ətrafında birləşdirəcək AVİB Azərbaycanın böyük iqtisadi güc mərkəzinə çevrilməsində öz töhfəsini verəcəkdir. Hazırda Avrasiya regionunda yerləşən biznes qurumları ilə əlaqələrin gücləndirilməsi və region ilə bağlı bu və ya digər iqtisadi tədbirlərin təşkili və/və ya tədbirlərdə iştirak prosesi davam etdirilir.

7) ATİB-in digər mühüm layihələrindən biri də ölkədə mövcud olan kadr potensialından səmərəli istifadə və təhsil sistemi ilə bağlı problemlərin həllində fəal iştirak edilməsi iə bağlı hazırlanmış TƏHSİL TV Layihəsidir. 2 ilə yaxın müddətdə həyata keçirlən bu layihə zamanı beynəlxalq və yerli təşkilatların nümayəndələri ilə, o cümlədən Heydər Əliyev Fondunun rəhbərliyi ilə danışıqlar aparılmış, həmin nümayəndələrin əksəriyyətinin iştirakı ilə Təhsil TV adlı komissiya yaradılmış, Layihənin konsepsiyası və təqdimatı hazırlanmışdır. Kütləvi maarifləndirməyə xidmət edəcək və “ömürboyu təhsil” şüarını rəhbər tutacaq bu layihənin maliyyələşdirilməsi ilə bağlı hazırda müzakirələr aparılır. Eyni zamanda bu və ya digər layihənin maliyyələşdirilməsi ilə bağlı Azərbaycanda Təhsilin İnkişafı Fondunun təsisçilərinin müəyyənləşdirilməsi işi davam etdirirlir. Bu ilin sonuna qədər sınaq yayım kimi Təhsil TV-nin yayımlanması nəzərdə tutulur.

8) Azərbaycanın ali məktəbləri ilə birgə elmi-praktiki konfransların təşkil edilməsi. Hər 2 ölkənin alimlərinin bir-birinə tanıtdırılması və elmi tədqiqatların birgə aparılması məqsədilə keçirilən Konfranslar böyük uğur qazanır. Növbəti Konfrans ATİB və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığında 15 May 2006-cı il tarixində “Azərbaycan və Türkiyə Tarixində Erməni Məsələsi” mövzusunda keçiriləcəkdir. Konfransda iştirak etmək üçün Türk Tarih Kurumunun Prezidenti Prof. Dr. Yusuf Halaçoğlu Azərbaycanda səfərdə olacaq

və Azərbaycan tarix institutunun direktoru, millət vəkili Yaqub Mahmudov ilə birgə natiq kimi çıxış edəcəkdir

**Əziz Balakənlilər!**

Əmin ola bilərsiniz ki, ATİB və onun üzvləri bundan sonra da ölkəmizin güclənməsinə öz töhfəsini verəcək və Balakən rayonunun iqtisadi və sosial inkişafında öz dəstəyini əsirgəməyəcəkdir.